# Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib. Mən bu parlaq və dərin məzmunlu müsahibə ilə diqqətlə tanış olmuşam. Qeyd etmək istərdim ki, dövlətimizin başçısının son vaxtlar regionda və dünyada baş verən hadisələrlə bağlı fikir, şərh və mülahizələri, faktiki olaraq qlobal medianın əsas mövzularına çevrilmişdir. Bəli, Prezident İlham Əliyev öz dərin mühakiməsi ilə dünya KİV-ində gündəm yaradır.***



Müstəqil Azərbaycanın dünyada nüfuzu sürətlə artmaqda davam edir. Təqirəlayiq haldır ki, çağdaş dünyanın əsas güc mərkəzlərindən olan Avropa İttifaqının rəhbərliyi ölkəmizin son vaxtlar regionda və dünyada oynadığı mütərəqqi rolunu layiqincə qiymətləndirməyə başlamışdır. Görünür, burada Azərbaycanın İkinci Qarabağ müharibəsində parlaq qələbəsi öz təsirini göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşünün əhəmiyyəti barədə danışarkən demişdir: "Bir saat ərzində biz geniş sahələri əhatə edən məsələləri müzakirə etdik. Əlbəttə, əsas diqqət münaqişədən, ötənilki müharibədən sonra yaranmış vəziyyətə yönəldilmişdir. Əlbəttə, Avropa Komissiyasının səyləri Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına yönəldilib".

Dövlətimizin başçısı sonra qeyd edib ki, rəsmi Bakı Avropa Komissiyasının və xüsusilə də Şarl Mişelin səylərini yüksək qiymətləndirir. Belə ki, cənab Mişel bu ilin yayında Azərbaycanda və Ermənistanda səfərdə olmuşdur. O, vəziyyətin təfərrüatlarından xəbərdardır və kifayət qədər konstruktiv mövqe sərgiləyir. Məhz buna görə də Azərbaycan dövləti bu təcrübəli diplomatın danışqlarda şəxsi iştirakına böyük dəyər verir.

Cənab İlham Əliyev vurğulayıb ki, Brüsseldəki danışıqlar zamanı Ermənistan tərəfindən  dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına razılıq verilib. Azərbaycana gəldikdə isə, ölkəmiz bu sahədə artıq işlərə başlamışdır. Beləliklə, azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır.

Müsahibəni aparan jurnalist qeyd edib ki, Azərbcaycan tezliklə regionda nəinki enerji habına, eyni zamanda, Qərb və Şərq arasında, Çindən Avropaya qədər sanki bir kommersiya, nəqliyyat habına çevrilə bilər. Bu, iqtisadiyyatın şaxələndirilməsinin bir yolu da ola bilər, regionda sabitliyi təmin edə bilər. Eyni zamanda, bu, vəziyyətin sabitləşdirilməsi və sülhə nail olmaq üçün kömək edə bilər.

Jurnalistin dövlətimizin başçısının bu haqda nə düşündüyü barədə sualının cavabında cənab İlham Əliyev demişdir: "Mən sizin fikrinizlə tamamilə razıyam. Əslində, biz bunu Azərbaycanda ən azından son onillikdə fəal şəkildə həyata keçiririk. Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk. Bu, asan iş deyil, çünki bizim açıq dənizə çıxışımız yoxdur. Biz, birinci növbədə, qonşularımızla yaxşı münasibətlərdə olmalıyıq. Çünki bu münasibətlər olmadan heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz. Bu imkanı yaxşı regional əməkdaşlıq mühiti, üstəgəl nəqliyyat infrastrukturuna investisiya yaratdı".

Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, dərin düşünülmüş siyasəti sayəsində Azərbaycan nəinki regionda, hətta Avrasiya kimi nəhəng bir məkanda böyük bir nəqliyyat mərkəzinə çevrilir. Bu, şübhəsiz, ölkəmizin inkişafını sürətləndirməklə bərabər, regionda sülh və sabitliyin bərqərar olunmasına müsbət təsir göstərəcək.

***Arzuman MURADLI,***
***YAP Səbail rayon təşkilatının sədr müavini,***
***İqtisad elmlər üzrə fəlsəfə doktoru***

Xalq qəzeti.- 2021.- 21 dekabr.- S.4.